Görkəmli geoloq-alim, akademik MİRƏLİ QAŞQAY

Azərbaycanın dünyaşöhrətli geoloqu, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru, Əməkdar elm xadimi, akademik Mirəli Qaşqay 7 yanvar 1907-ci ildə Gəncədə dünyaya göz açıb. Hələ uşaq yaşlarından elmə olan marağı Mirəlinin 1912-ci ildə Gəncə gimnaziyasında təhsil almağa başladığı illərdə daha da artıb. 1930-cu ildə Azərbaycan Politexnik İnstitutunun (indiki AzTU) dağ-mədən fakültəsini bitirərək mühəndis-geoloq ixtisasını qazanıb. Elə həmin il SSRİ Elmlər Akademiyasının Petroqrafiya İnstitutunda aspiranturaya qəbul olub. Gənc alimin elmi fəaliyyətindəki ilk mühüm addımlardan biri 1934-cü ildə müdafiə etdiyi "İstisu mineral bulaqlarının geoloji-petroqrafik və geokimyəvi səciyyəsinə dair" namizədlik dissertasiyasıdır.

Mirəli Qaşqayın adı xüsusilə Kəlbəcər bölgəsinin faydalı qazıntılarının tədqiqi ilə daha sıx bağlıdır. Onun rəhbərliyi və iştirakı ilə İstisu mineral bulaqları və ümumiyyətlə, Azərbaycanın zəngin təbii sərvətləri hərtərəfli öyrənilib. Petrologiya, mineralogiya, filiz və qeyri-filiz faydalı qazıntılar sahəsində ilk araşdırmaları akademik Mirəli Qaşqay və Şəfayət Əzizbəyov həyata keçiriblər. Maqmatik süxurların əmələ gəlməsi, onların yerləşməsi və bu süxurlarla bağlı faydalı qazıntı yataqlarının formalaşması sahəsində mühüm qanunauyğunluqlar üzə çıxarılıb. Kiçik Qafqazın mərkəzi hissəsi və Talış dağlarının süxurlarının tədqiqi onun elmi irsində xüsusi yer tutur. 1942-ci ildə yazdığı "Azərbaycanın əsas və ultraəsas süxurları" adlı monoqrafiyasına görə geologiya-mineralogiya elmləri doktoru adına layiq görülüb. Bu əsər həm Azərbaycan elmi, həm də dünya geologiyası üçün dəyərli töhfə hesab olunur.

Görkəmli alim Mirəli Qaşqay öz biliyi və zəhməti ilə Azərbaycan elmini dünyada tanıdan simalardan biri olaraq tarixə düşüb. Akademik Azərbaycanın zəngin yeraltı sərvətlərinin dərin tədqiqatçısı kimi geologiya elminə misilsiz töhfələr verib. O, Daşkəsən rayonunda filiz faydalı qazıntıların tədqiqində və Zəylik alunit yatağının öyrənilməsində əvəzsiz rol oynayıb. Alimin "Zəylik yatağında alunitləşmə və kaolinləşmə", "Azərbaycanın əsas və ultraəsas süxurları", "Azərbaycanın mineral qaynaqları", "Tərtər çayının yuxarı axarının geologiyası", "Şuşa rayonunun geoloji-petroqrafik xarakteristikası, mineral qaynaqları və faydalı qazıntıları", "Listvenitlər, onların genezisi və təsnifatı" kimi əsərləri keçmiş SSRİ-də və dünya elmi ictimaiyyətində geniş tanınıb. O həm də Azərbaycanın yeraltı sərvətlərinin ətraflı təsviri olan yeddicildlik "Azərbaycan geologiyası" nəşrinin yaradıcılarından biridir.

Görkəmli alim, eyni zamanda ölkəmizin bir sıra faydalı qazıntı yataqlarını, o cümlədən iri perlit və obsidian yataqlarını ilk kəşf edənlərdən olub. Kəlbəcər bölgəsindəki obsidian və perlit yataqları, Kiçik Qafqazda və Sibirdə bir çox metal və qeyri-metal faydalı qazıntı yataqlarının kəşfi onun gərgin zəhmətinin bəhrəsidir. Geoloq filizəmələgəlmə proseslərinin fundamental problemlərini həll edərək respublikada 220-dən çox mineral və termal mənbənin olduğunu müəyyənləşdirib.

Onun Azərbaycanın hidrokimyəvi rayonlaşdırılmasının əsas prinsiplərini işləyib hazırlaması və dərinliklərdə istiliyin yayılmasını əks etdirən "Azərbaycanın geokimyəvi xəritəsi"ni yaratması elm üçün yeni istiqamətlər açıb. Akademik Mirəli Qaşqay təkcə Azərbaycan elmi üçün deyil, həm də dünya geologiyası üçün unudulmaz irs qoyub. Onun irsi elm aləmində uzun illər boyu araşdırılacaq və yeni kəşflərə yol göstərəcək. 1945-ci ildə M.Qaşqay Azərbaycan Elmlər Akademiyasının (AEA) həqiqi üzvü və ilk akademik-katibi seçilib. 1946-cı ildə isə o, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) professoru olub. Bu vəzifələrdə çalışmaqla yanaşı, o, Azərbaycan elminin beynəlxalq aləmdə tanınmasına mühüm töhfələr verib.

Akademik Mirəli Qaşqayın Yer elmləri sahəsindəki xidmətləri təkcə ölkəmizdə deyil, xaricdə də yüksək qiymətləndirilib. Onun elmi əsərləri İngiltərə, İspaniya, Bolqarıstan, ABŞ, Yaponiya, Kanada və digər ölkələrdə nəşr olunub. Alimin adı Avstriyanın və ABŞ-ın "Kim kimdir" ensiklopediyalarına daxil olub, bir çox ölkələrin məlumat kitablarında görkəmli alim adı yer alıb. Onun tərtib etdiyi "Azərbaycanın geotermik xəritəsi" alimlərin diqqətini Azərbaycan geologiyasına yönəldərək, ölkəmizin yeraltı sərvətlərinin tədqiqi üçün mühüm elmi baza yaradıb.

Azərbaycanın elm tarixində silinməz iz buraxmış akademik 1977-ci il aprelin 23-də Bakı şəhərində dünyasını dəyişib və Fəxri xiyabanda dəfn olunub. Onun həyat və fəaliyyətinə dair materiallar Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr və Fotoneqativ materialları fondlarında xüsusi diqqətlə saxlanılır. Bu, alimin Azərbaycanın elmi və mədəni irsindəki xüsusi yer tutduğunu bir daha göstərir. Həmin əsərlər onun həyat yolunu daha parlaq şəkildə əks etdirir və geologiya elminin inkişafında sanballı rol oynayır.

Röya RÜSTƏMLİ,
"Respublika".